**Osman Eminov**

# Coğrafi dünya görüşü

## I hissə

# Ön söz

Coğrafiya elmi kökü çox qədimlərə gedən, təbiəti, cəmiyyəti və kosmik məkanı öyrənən böyük bir elm sahəsidir. Coğrafiyanı bilmədən əraziyə sahib olmaq qeyri-mümkündür. Coğrafiya bilmədən heç bir ölkə nə öz sərhədləri daxilində nə də xaricində öz siyasətini yeridə bilməz. 15-ci əsrdə ispanlar və portuqallar Yeni Dünyanı kəşf etdilər. Bununlada ən gerida qalan, səfil və kasıb günündə yaşayan bir qitə bütün dünyaya hakim oldu. Bunun əsas səbəbi avropalıların ərazilərin coğrafıyasına bələd olmaları ilə bağlı idi. Onlar getdikləri əraziləri öyrənir, tədqiqat aparır, proqnoz verir və bu ərazilərin öz ölkələrinə verəcəkləri iqtisadi səmərəni hesablayırdılar. Bu kəşflərdən kənarda qalan ölkələr isə indi də dünyada öz sözünü deyə bilmir. Biz çalışmalıyıq ki, bu elmi daha da inkişaf etdirək, onun verəcəyi səmərəni dövlətə çatdıraq. Bir haldakı ölkəmiz inkişaf edir, regionda öz siyasi çəkisini artırır, turizm sektoru dirçəlir, ərazilərdə yeni obyektlər inşa edilir bütün bu işlərin görülməsində coğrafiya elmi və onun alimləri öz ideyalarını verə və tətbiqi fəaliyyətini göstərə bilər. Coğrafiyanı yaxşı bilən bir şagird gələcəkdə torpaqlardan necə istifadə etməyi öyrənəcək, dünyada olan iqtisadi idarəetmə modellərini bilib ölkəmizə hansının tətbiq edilməsi yollarını yaxşı dərk edəcək. Bu elmi bilmədən kartoqrafiya və geodeziya ixtisaslarına yiyələnmək olmaz. Görəsən hansı dövlətdə xəritəçəkmə barədə olan elmi öyrənən tələbə coğrafiyadan imtahan vermir? Hansı ölkədə turizm sektorunu inkişaf etdimək istəyən bir dövlət bu sahəni araşdıran elmə ögəy münasibət bəsləyir? Su qıtlığından əziyyət çəkən bir ölkədə su ehtiyyatlarını məktəb vaxtından tədris edən coğrafiyadır. Azərbaycan dili, tarixi və coğrafiyasını hər bir məktəbli bilməlidir…

Siz bu elektron kitabda coğrafiyanın nə qədər geniş və əhatəli bir elm sahəsi olduğunu bir daha görəcəksiniz.

## Hacı Zeynəlabdin Şirvani

1826-cı ildə Bakıda olmuş görkəmli səyyah Zeynalabdin Şirvani yazırdı:
"Bakını Badkubə də adlandırırlar. Çünki bu yerdə daim küləklər əsir. Bəzən elə güclü əsir ki, şəhərin böyük tikililərini də xəsarətə uğradır. Buna görə burada evlərin özülünü yonulmuş daşlardan qoyur, həyətləri və damları qırla örtürlər".



## Maqnitosfer

Yer kürəsinin maqnit sahəsi onun maqnitosferi adlanır. Maqnitosfer, onun mövcudluğunu ilk dəfə təyin edən ABŞ astrofiziki Ceyms Alfred Van Allenin şərəfinə “Van Allen qurşaqları” adlandırılır. Yer səthindən başlayaraq on minlərlə kilometr uzaqlıqda olan “Van Allen qurşaqları” Yerdəki canlıları kosmosdan və Günəşdən gələn məhvedici enerjidən, zərərli kosmik şüalardan qoruyan “sipər” rolunu oynayır.
Qeyd edək ki, Günəş sistemində Yerdən başqa Merkuri, Yupiter və Saturn planetlərində də maqnit sahəsi aşkar edilmişdir. Ay maqnit sahəsinə malik deyildir




Eminov

## Maqnit qasırğası

Günəş atmosferində güclü partlayışlar baş verdikdə kosmik fəzaya atılan sürətli yüklü zərrəciklərin bir hissəsi "Van Allen qurşaqları"nı keçərək Yer atmosferinə daxil ola bilir. Nəticədə bu zərrəciklərin yaratdıqları maqnit sahəsi Yerin maqnit sahəsinə təsir edərək onu gücləndirir – maqnit qasırğası baş verir. Maqnit qasırğası zamanı radiorabitədə pozulmalar yaranır, insanların səhhəti pisləşir, Şimal qütbünə yaxın ərazilərdə isə qütb parıltısı və s. baş verir.




## ABŞ necə ölkədir?

Bu ABŞ-dır, öz vətəndaşları üçün cənnət digər ölkələr üçün yırtıcı bir ölkədir. Dünyanın istənilən ölkəsində onun pasportu altında olan vətəndaşlarına gözün üstə qaşın var deyən ola bilməz. Onun vətəndaşlarına hər yerdə hörmət edilir, bu hörmət qorxudan irəli gəlir.
Yarandığı 1776-cı ildən bəri 243 il keçib. Bu 243 ilin 222 ilini bu və ya digər şəkildə müharibə şəraitində, 21 il isə sülh şəraitində olub.



## Ən aşağı əhali sıxlığına malik olan ölkələr



## Hind- Avropa dil ailəsi



# ABŞ-da 20-ci əsrdə iş şəraiti

Fotoda sağda duran adam nəzarətçidi. O, uşaqların işinə nəzarət edir, kimsə ləngiyəndə əlindəki zopa ilə vurub "aktivləşdirirdi". Uşaqlarsa daş kömürü gildən, daşdan və çınqıldan ayırırlar. Pensilvaniya, 1920-ci il.



## Mars və Yerdən Günəşin mənzərəsi

Göründüyü kimi Marsda səma bizdən fərqlidir. Yerdə gündüzlər səma mavi, günbatışında isə qırmızı olur. Marsda isə əksinə gündüzlər səma qırmızı, axşamlar göy olur. Çünki, yerdə axşamlar günəşin spektrumunun mavi ucu havadakı qaz molekulları tərəfindən dağıdılır. Marsda bunlardan çox yoxdur. Əvəzində çoxlu toz var. Bu da qırmızı dalğa uzunluğu yayır. Nəticədə, gündüzlər səma qırmızı, axşamlar mavi olur.



## Yerin kürə formasında olduğunu necə bilirik?

Yerin kürə formasında olduğunu illərdir ki bilirik. Əvvəlcə, fərziyyələr yürütdük, sonra bunu Yer səthində müşahidə etdik. Dövrümüzdə Yer kimi kürə formasına sahib planetlər kəşf edirik, lakin hələ də bu planetlərin düz olduğuna inananlar (bu qrupda da var) var. Əgər Yer düz olsaydı, Yer səthindəki bütün hündür obyektləri gözümüz və yaxınlaşdırıcı cihazlarımız qəbul edən qədər görərdik. Məsələn, Bakıdan baxdığımız zaman Parisdəki Eyfel qülləsini və ya Misirdəki Giza Piramidasını görə bilərdik. Lakin Yerdə məsafələr artdıqca meridianlar müəyyən bir nöqtədən sonra qıvrıldığı üçün bir müddət sonra obyektləri görmək mümkün deyil. Əslində, bu qədim yunanlardan bu yana bilinən məlumatdır. Riyazi olaraq isə Eratosfen Yerin kürə olduğunu hesablanmışdı.

Filosof və elm adamı Aristotel kitablarında gəmiçilərin üfüq xəttində yox olmalarını açıqlamış və bunu Yerin kürə formasında olduğunu olduğunu təsdiq edən məlumat kimi qiymətləndirmişdir. Hətta, Aristotel Günəş

tutulması zamanı Yerə düşən kölgənin Yerin yuvarlaq olduğuna dair daha bir isbat olduğunu bildirmişdi.

Aristoteldən 200 il sonra isə Misirdə yaşayan yunan elm adamı Eratosfen yuxarıdakı isbatları riyazi olaraq hesablanmışdı. Məsafə artdıqca şəffaflığın və kölgə ölçülərinin dəyişdiyini görən Eratosfen buradan Yerin kürə şəklində olduğunu düşünərək onun çevrəsini hesablanmışdı. O, bir gün İsgəndəriyyə şəhərində günorta vaxtı cisimlərin öz kölgəsinin olmadığını müşahidə etmişdi. Bu hadisədən sonra bir işçi kirayələrək Günəş işıqlarının Yer səthinə dik düşdüyü günlərin birində maraqlı bir təcrübə aparmışdı.

Təcrübə: Özü yaşadığı və kirayələdiyi işçinin kölgəsini ölçdü. Iki kölgə ölçülərinin fərqini 2 şəhərin arasındakı məsafə ilə müqayisə edən alim Yerin çevrəsini bu gün bildiyimiz rəqəmlərə çox yaxın olaraq hesablayıb.



## Kosmik gəmi necə havaya qalxır?

Kosmik gəmini havaya qaldırmaq üçün görüləcək əsas iş cazibə qüvvəsinə qalib gəlməkdir. Bu da raket mühərrikləri ilə işləyən nəhəng mərmilərlə təmin edilir. Kosmik gəmi bu mühərriklərin uc hissəsinə yerləşdirilir. Ilk alovlanma zamanı sürət saatda 100 km olduğu halda Yer ətrafındakı orbitə çata bilmək üçün sürətin saatda 25.000 km-i aşması lazım gəlir.
Yenə Yer xaricindəki ulduzlararası boşluqda bir hədəfə doğru yollanacaq gəmilərin cazibə sahəsindən xilas olmaları üçün sürətin 40.000 km-ə qədər çatması vacibdir. Cihaz havaya qalxdıqca cazibənin təsiri azalır. Təxminən 100.000 km yüksəklikdə cazibə qüvvəsi 20 dəfə azalır. Kosmik cihazın müəyyən bir məsafədən sonra sürət əldə etməsi üçün raket mühərrikləri adətən 3 mərhələdən ibarət olur. Əvvəlcə birinci hissə yanır. Yanacaq bitərkən bu hissə atılır və kosmik cihaz nisbətən yüngülləşir. Sonra növbə ilə digər hissələr işə düşür.



## Kosmik koloniya

Portland Universitetin professoru Kameron Smitə görə 2000 insandan ibarət olan bir kosmik koloniyanın sakinləri 300 ildən sonra bizdən fərqli bir görünüşə, fərqli davranış formalarına, saç quruluşuna, fərqli dəriyə, aşağı yer çəkiminə malik hündür bədən quruluşuna və s. malik olacaqlar. Smitə görə, hətta bu koloniyalarda genetik mühəndislik yolu ilə yeni orqanlar belə yaradıla bilər. Məsələn: kosmik şüalardan qorunmaq üçün orqanlar və yaxud karbondioksidi oksigenə çevirə biləcək qəlsəmələr yaradılacaq. Bu yolla artıq insan süni biosferdən çıxaraq yeni evlərinə tam olaraq yerləşmiş olacaqlar..



Emin Eminov

## Qara dəliklər

Qara dəlik elə bir məkan-zaman yeridir ki, qravitasiya cazibəsi həddən böyük olduğundan, işıq sürətilə hərəkət edən obyektlər, hətta işıq kvantları belə oranı tərk edə bilmirlər. Bu yerin sərhədləri "hadisələr üfüqü" adlanır, ölçüləri isə qravitasiya radiusudur. Ən sadə halda sferik simmetrik qara dəlik Şvarsşild radiusuna bərabərdir. Eynşteynin tənliklərinin bəzi dəqiq hesabları var ki, onların ilkini Karl Şvarsşild etmişdi. "Qara dəlik" ifadəsinin müəllifinin bəlli olmadığı deyilir, amma ifadəni Con Arçibald Uiler məşhurlaşdırıb. Bu, belə və fizika ilə maraqlanan hər şəxs yazdıqlarımı bilir.

Amma...

1756-cı ildə Benqaliyanın nəvvabı, yəni hökmdarı Sirac üd Dövlə britaniyalıların təsir imkanlarının və gücünün artmasından təşvişə düşərək Fort-Uilyam qalasına hücum etdi. Bu qala sonralar Kəlküttə şəhəri olacaqdı. Nəvvabın əmrinə əsasın, yerli sakinlərlə pis davranan britaniyalı əsgərlər və zabitlər tutuldular, şəhər həbsxanasındakı "Qara dəlik" adlı zindana salındılar. Zindanın sahəsi cəmi 20 kvadrat metr olsa da, ora 156 əsir ingilisi doldurdular. İngilislər yaralardan, susuzluqdan və bürküdən ölməyə başladılar. Səhər "Qara dəlik"də cəmi 23 nəfər sağ qalmışdı. Bu hadisə Britaniya qəzetlərində və jurnallarında nəvvabın qəddarlığı kimi çox müzakirə olundu. Bir il sonra general Robert Klayv qalanı jeri aldı, sonra da bütün Benqaliyanı ələ keçirdi.
O, 1000 avropadı, 2 min sipay və 8 topa malik olsa da, 35 min piyada, 15 min süvari və 50 topdan ibarət nəvvab qoşununu Plessi yaxınlığında darmadağın etdi.
Kəlküttədəki "Qara dəlik" zindanı ilə bağlı faciədən fizik Robert Dik bəhs etməyi çox sevirdi. Hətta onun evində və ya laboratoriyasında nə isə itəndə Dik deyirdi: "Bu zibili Kəlküttənin qara dəliyi uddu".
Daha sonra Dik mühazirələrində də "qara dəlik" ifadəsini söyləməyə başladı.
Hə, yeri gəlmişkən...
Kosmosda qara dəliklərlə bahəm, ağ dəliklər də var. Əgər qara dəlikdən heç nə qurtula bilmirsə və orada hər şey yox olursa, ağ dəliyə heç nə düşə bilmir.



## Yunan filosofu Diogenin məşhur cavabı

Yunan filosofu Diogen çəlləkdə yaşayırdı. Bir gün Böyük Isgəndər günəş altında istirahət edən Diogenə baş çəkməyə gedib, onun üçün nə edə biləcəyini soruşduqda, Diogen qüdrətli fatehə belə cavab vermişdi: "Səndən yanlız bir şey istəyirəm. Xaiş edirəm, biraz kənara çəkil, Günəşin qarşısını kəsmə"



Eminov

## “Mən burada idim”

Qədim insanlar bu əl izlərini təxminən 9 min il əvvəl Argentinada "Əllər mağarası"ında qoyublar. Sanki çoxdan ölmüş əllər qayalara dırmaşaraq bizə doğru can atır. Bu qədim insanlar dünyanın ən təsirli yadigarlarından biridir, amma heç kəs bunun nə məna verdiyini bilmir....



## Ache qəbiləsinin qəddar adəti

Paraqvay cəngəlliklərində Ache qəbiləsi var, 1960-cı illərə qədər dəhşətli adətləri var idi. Beləki, qrupun dəyərli bir üzvü öldükdə, achelər adətən kiçik bir qızı da öldürür və onunla birlikdə torpağa basdırırdı. Achelərlə görüşən antropoloqlar bir dəfə xəstələnib qrupla ayaqlaşa bilməyən orta yaşlı bir kişinin tərk edildiyini qeyd etmişdi. Onu ağacın altında qoyub getmişdilər. Ləzzətli bir yemək gözləyən quzğunlar onun başı üzərində uçuşurmuş. Amma o var gücünü toplayıb cəld addımlarla yeriyərək qrupa qoşulmağı bacarır. Bütün bədəni quzğunların nəcisi ilə ötürdüyündən, ona "Quzğın zılı" ləqəbini vermişdilər.

Bir qoca Ache qadını qrupun qalan hissəsi üçün yükə çevrildikdə gənclərdən biri ona arxadan səssizcə yaxınlaşır və başına baltayla vuraraq onu öldürmüşdü. Bir Ache kişisi antropoloqlara cəngəllikdə keçirdiyi illər haqqında bunları deyir. "Mən adətlərə görə yaşlı qadınları öldürürdüm. Bibilərimi öldürüdüm. Qadınlar məndən qorxurdu.. Indi burada ağ adamlarla birlikdə zəif biri oldum. Saçsız körpələr az inkişaf etmiş sayılır və dərhal öldürülürdü. Qadınlarından biri qəbilədəki kişilər başqa bir qız uşağı istəmədikləri üçün ilk qızının öldürüldüyünü xatırlayır. Bir kişi öz körpə oğlunu "qanıqara olduğuna görə və ağladığına görə" öldürmüşdü. Başqa bir uşaq da "gülünc göründüyü və digər uşaqlar ona güldüyü üçün" diri-diri basdırılmışdı.



## Harvard Universitetinin tələbələri özlərini aşağıdakı fikirlərlə motivasiya edirlər:

1. Əgər sən indi yatsan, yuxuda arzunu görəcəksən. Əgər sən təhsil alsan, arzunu reallığa çevirəcəksən.
2. Düşünəndə ki, artıq gecdi, əslində, hələ kifayət qədər tezdi.
3. Təhsilin əziyyəti müvəqqətidir, savadsızlığın əzabı isə ebədidir.
4. Təhsil vaxt deyil, təhsil cəhddir.
5. Həyat təkcə təhsildən ibarət deyil. Ona görə də əgər bu gün sən bu mərhələni atlaya bilmirsənsə, ümumiyyətlə başqa nəyə güvənirsən?
6. Gərginlik və cəhdlər həzzə çevrilə bilər.
7. Kim ki hamıdan tez çalışır, kim ki hamıdan çox əziyyət çəkir, o kəs həqiqi mənada uğurunun dadını çıxara biləcək.
8. Hər sahədə uğur qazanmaq hamıda olmayan bir şeydir. Hər bir uğur əziyyət və özünütəkmilləşdirmə hesabına reallaşır.
9. Vaxt uçur.
10. Bu günkü tənbəlliklər sabahkı göz yaşlarına çevrilə bilər.
11. Gələcəyə investisiya edənlər realistlərdir.
12. Sənin gəlirin, sənin savadınla düz mütənasibdir.
13. Bu gün heç vaxt bir daha təkrarlanmayacaq.
14. Hətta bu an belə sənin düşmənlərin acgözlüklə kitab vərəqləyirlər.
15. İşləməyən dişləməz.




## Xorvatiyanı tanımayan ölkələr



## Brazilwood ağacı

Braziliyanın adı bu ağacın adından götürülüb.



## OPEK-in üzvləri



...n Eminov

## Andorranın dili

Andorra yeganə ölkədir ki, katalon dili rəsmi dildir, 80 min nəfər əhali yaşayır, ildə isə 10 milyon turist gəlir. Ölkənin paytaxtı olan Andorra-la-Velya dəniz səviyyəsindən 1029 metr hündürlükdə yerləşir və Avropa paytaxtları sırasında ən yüksək dağlı şəhərdir.




## Etnik rusların ölkələrdə faizlə nisbəti.




Eminov

## Cənubi Amerika 138 il bundan öncə.



**Argentina əhalisinin 37%-i İtaliyadan gələnlərin nəsilləridir.**




**Əhalisinin sayı 10 mlndan az olan ölkələr**



Eminov

## İnsan təbiətin bir parçası

Biz təbiətin bir parçasıyıq, təbiəti məhv ediriksə özümüzü məhv edirik.



## Norveçdən Çinə yoxsa Portuqaliyaya?

Əgər bizə sual versələr ki, məsafə Norveçdən Portuqaliyaya daha yaxın olar ya Çinə? İçi mən qarışıq hamımız Portuqaliya fikirləşirik. Amma şəkilə baxın



## Günəş tutulması

Günəş tutulması Ayın Yerlə Günəş arasına daxil olması nəticəsində olur. Bu zaman “Günəş tacı” daha yaxşı görünür.



## Bir vaxtlar ən xoşbəxt bir qitə

Afrika eradan əvvəl 7000-ci ildə. Bu dövrdə dünyada ən xoşbəxt və zəngin qitə Afrika idi. Qədim insanlar tənbəl- tənbəl savannalarda dolaşır, arada mamont görəndə qaçıb ət yemək üçün tələsirdilər. Vaxtilə böyük əraziləri tutmuş meşələrin yerində savannalar yaranmağa başlamışdı. Bundan sonra ağaclardan yerə düşən homosapiens ətrafı yaxşı görmək üçün dik gəzməyə çalışdı, beləliklə çox əraziləri görmək onda beyninin alın hissəsini inkişaf etdirdi. Insanlar böyük çənə sümüyünə malik idi, çünki çiy ət yeyirdilər. Bu da böyük və güclü dişlərin olmasını vacib edirdi. Bişmiş ət yedikdən sonra çənə sümüyünə əvvəlki kimi güc düşmədi və kiçilib yavaş -yavaş indiki formanı aldı..




Eminov

## Kolumbun daha bir kəşfi

Bildiyimiz kimi coğrafi meridian ilə maqnit meridianıı Yerin mərkəzində kəsişib 11,5° bucaq əmələ gətirirlər. Bunu ilk dəfə müəyyən edən X. Kolumb olmuşdur. Beləki, o zaman cəhətlərin təyin edilməsində ən məşhur yol qütb ulduzunun təyini idi. Məlum idi ki, qütb ulduzu yalnız şimal yarımkürəsində görünür və şimal qütbü istiqamətini göstərir. Kolumb kompasın şimalı göstərən əqrəbi ilə qütb ulduzu arasında fərq hiss edir. Beləki kompasın şimal əqrəbi şimal -qərbə yönəlir, beləliklə maqnit meridianı ilə coğrafi meridianın üst-üstə düşmədiyini müəyyən etdi.




Osman Eminov

## Ən şimalda yerləşən şəhər

Alert şəhəri Elsmir adasında, Kanadanın Nunavut vilayəti Kikiktaaluk rayonu ərazisində və şimal qütbündən 880 km (82 dərəcə şimal enliyi) məsafədə yerləşir.




## Termik ekvator

Yer kürəsinin ən isti yerlərini birləşdirən "Termik ekvator"u



**Uran planeti 1781-ci ildə kəşf edilib, Antarktida qitəsi isə 1820-ci ildə. Çox qəribədir**




**Baltik dənizinin iqtisadi zonası.**




n Eminov

## Keqinsberq- Kalininqrad bölgəsi

Rusiyanın ikinci dünya müharibəsindən sonra Almaniyadan qopardığı almanların Keqinsberq dediyi Rusların isə Kalininqrad adlandırdığı şəhər. Ruslar yarandığı andan dünya ölkələrinə qarşı daim təhdid mövqedə duran və dünyada sülhün və əmin-amanlığın qarşını bir səd kimin alan, daima başçıları geniş torpaq almaq uğrunda mübarizə aparan eqomanyak bir tiplər idilər. Dünya elminə, ədəbiyyatına böyük töhfələr vermiş qarışıq rus-tatar- yəhudi əsilli şəxsiyyətləri çıxmaqla bu dövlətin dünyaya heç bir xeyri dəymədi. Xalqın özü böyük mədəniyyət daşıyıcıları olsa da onları həmişə İvan Qroznı, Stalin, Putin kimi vəhşi terroristlər, manyaklar və başının bir hissəsi işləməyən (Suvorov Partiyanın qızıl tarixi kitabının oxuyun) Lenin kimi yarı rus yarı yəhudi, yarı adam yarı heyvan adamlar idarə ediblər.
İmanuel Kant da Keqinsberqdən idi



## Dunay çayı bu paytaxt şəhərlərdən keçir.

-Vyana
-Bratislava
-Budapeşt
-Belqrad




## Hu xətti nədir?

"Hu xətti" adlanan bu xəttin şərqində Çinin əhalisinin 94%-i yaşayır, daha çox xanlardan (Çinin yerli əhalisi) ibarətdir. Bu xəttin qərbində isə əhalinin 6%-i yaşayır və daha çox Çinin tərkibində olan digər etnik birləşmələr yaşayır. Amma bu ərazidə Çinin ən böyük faydalı qazıntı yataqları yerləşir.



## Mənbəyi Tibetdən başlayan çaylar




## Yeni Zelandiyanın maori xarici işlər naziri Nanaia Mahuto



Eminov

## Düz dünya haqqında The Guardian nə yazır?

İngiltərənin dünyaca məşhur "TheGuardian" qəzeti düz dünya barədə bir məqalə yazıb. Məqalə gəmi kapitanı Henk Keijerin müsahibəsi əsasında hazırlanıb.
Kapitan qeyd edir ki, bütün gəmi naviqasiya sistemləri dünyanın yumru və fırlanmasına əsasən hazırlanıb. Bundan öncə göydəki peyklər vasitəsi ilə işləyən GPS sistemləri də yerin kürə və fırlanması prinsipinə əsaslanır. GPS sistemləri göydə ən əsas olan 24 peykdən məlumat alır. Amma Yer düz olsaydı o zaman bu qədər peykə ehtiyac qalmazdı, cəmi 3 peyk ilə bütün məlumatları almaq mümkün olardı. 24 ədəd əsas peyk dünyanın hər bir tərəfinə məlumat vermək üçün yerləşdirilib. Bundan başqa Kapitan qeyd edir ki, 23 illik karyera müddətində və 2 milyon mil məsafə qət edən adam kimi deyirəm, hələ heçbir gəmi kapitanı yerin düz olmasını iddia etməmişdir.




## Qara dənizdə iqtisadi zona




Eminov

## Böyük Britaniyanın etnik tərkibi

Böyük Britaniya çoxmillətli bir ölkədir, 86% ingilis, çoxunu isə asiyalılar təşkil edir. Onlarında çoxunu gözəl qardaşlarımız pakistanlılardır. Deyəsən Qarabağ müharibəsində niyə Böyük Britaniyanın bizim tərəfimizi tərəfində tutduğunu anladım.




## Təbiətə nə verərsən cavabını alarsan




Osman Eminov

## PanAmerika avtomagistralı

PanAmerika avtomobil yolu Alyaskadan Odlu Torpaq adalarına qədər (Uşuaya şəhəri) böyük bir məsafədə uzanan magistral yoldur. Ümumi uzunluğu 30 min km-dir. Yol Panama ilə Kolumbiya arasında olan hissəsində yerləşən Darien vilayətində kəsilir və hələ də tamamlanmayıb. Səbəbi burada keçilməz meşələrin, bataqlıqların və dağların olmasıdır.



## Dünyanın iki yerə bölünməsi

1594-cü ildə Roma papası Tordosillas müqaviləsi ilə dünyanı dədəsinin malı kimi Ispaniya və Portuqaliya arasında iki yerə böldü.




## Balinaların uzaqdan inanılmaz səs əlaqələri

Amerikalı bioloq Rocer Peyn araşdırıb ki, iki balina bir - birindən hansı məsafədə olur olsun, dərin okean sularında akustik kanallardan istifadə edib iyirmi hers tezlikdə bir -biri ilə əlaqə saxlaya bilir. Məsələn, Antarktidadakı Ross şelf buzlağının yanındakı balına Aleut adalarının yanındakı balina ilə xəbərləşə bilir.



## Tabaşir süxurunun mənşəyi

Çox vaxt sual verilir ki, tabaşir ilə əhəngdaşı üzvü yoxsa kimyəvi çökmə süxurdur?
Tabaşirin tərkibinin 60-70% plankton orqanizmlərlə (kokolitoforid) bərabər, kimyəvi mənşəli narındənəli, toz halında kalsit mineralı iştirak edir. Bir sözlə tabaşir həm üzvü həm də kimyəvi çökmə süxurdur
Əhəngdaşının isə iki növü var üzvi yolla əmələ gələn kimyəvi yolla əmələ gələn.
Üzvi əhəngdaşılar, adətən, molyuskaların qabıqlarından, foraminiferlərdən, mərcanlardan (korallardan), krinoidea qalıqlarından ibarətdir.
Kimyəvi mənşəli kürəciklər halında oolitlərdən ibarət olan oolitli əhəngdaşıları, əhəngli tuflar və digər süxurlar məlumdur.



## Avropada qalxma və enmələr

Şərqi Avropanın mərkəz hissələri enir, qərb hissələri isə qalxır. Belarusun paytaxtı Minsk şəhəri ildə 1,5 mm yüksəlir.



## Vulkan bombaları "Lapilla"

Lapillalar konsentrik orbitlər cızıb, ətrafa yağan - ən böyüyü alma boyda olan yuvarlaşmış materiallardır. Cənubi Amerikada Kotopaxi vulkanının 15 km-lik məsafəyə tulladığı bombanın ağırlığı 200 ton olmuşdur. Vulkano (İtaliya) kraterindən atılan bombanın çəkisi 69 tondur.



## Rusiyada zəlzələ ola bilər?

Gördüyünüz bu ərazi Rusiyanın Perm vilayətidir. Burada zəlzələlər baş verə bilər, soruşa bilərsiniz necə? Cavab budur ki, platformalarda tektonik və vulkanik zəlzələlər baş verə bilməz, amma zəlzələnin baş verməsinin bir səbəbi də denudasion zəlzələdir. Bu tip zəlzələlərə daş duz, gips, anhidrit, əhəngdaşı və s. yuyulan süxurların inkişaf etdiyi rayonlarda təsadüf edirik.



... Eminov

**Kamçatka yarımdasının cənubunda olan vulkanik mənşəli Kurilskaya gölü.**




## Alp dağlarının silsilələri

Bildiyimiz kimi Alp dağları meqa relyef forması olmaqla çoxlu sayda silsilələrə yəni makro formalara malikdir.




Eminov

## Şelf zonasının olmadığı ərazilər

Sakit Okeanın qərb və şərq sahillərində şelf (və yaxud nerit) zonasına rast gəlinmir. Məsələn: And - Kordilyer dağ sistemi hissəsində quru birbaşa materik yamacına birləşir. Səbəb budur ki, o hissələrdə okean tavası davamlı olaraq materik tavasinin altına gömülür, gömüldükcə ərazi qalxır, şelf zonasının yaranmasına imkan olmur. Şelf zonası əsasən passiv seymsik zonalarda abraziya prosesi nəticəsində yaranır. Dalğalar sahillərdə ki qayaları dağıdır, hamarlaşdırır və çökək hissələrə çökdürür. Beləliklə sahil boyu hissələr hamarlaniş şelfə çevrilir



## Asiyada xristian nüfus

Filippin birinci yerdədir, hətta Rusiyadan da çoxdur.
Ümumi olaraq Filippinin 102 milyon, Rusiyanın isə 147 milyon əhalisi var.



## Dayk relyef formaları

Yerli əhalinin "gəmiqaya", "qanadlı qaya" kimi adlandırdığı geoloji ədəbiyyatlarda isə "dayk" adlanan relyef formaları. Hündür ərazilərdə və yaxud vulkanizmin aktiv olduğu qayalıq hissələrdə əvvəlcədən orda olan çatlara maqma daxil olur. Bu çatlara dolan maqma daha gec soyuduğu üçün bərk kristal quruluş formalaşdırır. Ətrafdakı maqma aşınsa da dayklar milyon illər ərzində qalıb sanki yamaclarda bir "tramplin" forması alır






Osman

## Yardanq relyef formaları

Səhralarda formalaşan relyef formalarından biri də "yardanq"lardır. Küləyin təsiri ilə vaxtilə böyük ərazini tutan yumşaq qayalar parçalanır, dağılır, yəni külək qumu qayalara davamlı olaraq çırpdığı üçün qayalar təpələr formasına düşür və şəkildə gördüyünüz relyef formaları yaranır. Yardanqların özünəməxsus xüsusiyyətləri odur ki, onlar küləyin istiqamətinə uyğun olaraq sanki bir - birinə paralel uzanır, yuxarıdan baxanda bir qayıq forması alır







## Olbersin paradoksu

Insanları tarixən belə bir sual maraqlandırırdı, madam ki, kainatda bu qədər ulduzlar var, onların hər biri günəş kimi işıq saçır, bəs nə üçün bütün kainat gecə vaxtı zülmətə qərq olur? "Olbers paradoksu" adlanan bu suala Stiven Howkinq belə cavab verir ki, bu sual ulduzların əbədi orda olduğunu zənn edən təfəkkürün nəticəsidir. Ulduzlar əbədi deyil, bizim gördüyümüz ulduzların bəlkə də çoxusu artıq yoxdurlar, bəziləri milyon, milyard il öncə partlayıb məhv olub. Bir sözlə kainatı bürüyən ulduz işığının çoxunun başlanğıc nöqtəsi artıq yoxdur, onlar relikt kosmik şüalar kimi bütün kosmosa səpələniblər. Bu səbəbdən göy üzü bütün istiqamətlərdə işıqlanmır.



## İmanuel Kantın Kainat haqqında düşünəsi

Kainatın yaranması məsələsi məşhur alman filosofu Immanuel Kantı çox düşündürürdü. O deyirdi ki, əgər Kainat müəyyən vaxtda yaradılıbsa, nədən onun yaranması üçün bu qədər qeyri- müəyyən zaman keçmişdir, və kainatın yaranmasına qədər olan dövr hansı dövrdür?
Beləliklə kainatın hər zaman var olduğunu, sonsuz keçmişlərdən sonsuz gələcəyə doğru axan bir nəsnə olduğunu deyirdi.
Bu qədim yunan mütəfəkkiri Anaksimandrın "apeyron" nəzəriyyəsi ilə demək olar ki, eynidir. Kainat heç vaxt yaradılmayıb və heç vaxt da yox olmayacaq.
Qeyd edim ki, "apeyron" nəzəriyyəsini başda ibn Sina olmaqla digər İslam filosofları Allaha aid etməyə başladılar.



## Kriklərə su gəlib

2019-cu ildə Avstraliyanın Qvinslend bölgəsində şiddətli yağışlardan sonra kriklərə su dolmuş və belə gözəl mənzərə meydana gəlmişdi. Bir sözlə su həyat deməkdir, Yer kürəsində su olduğuna görə biz burdayıq.



Eminov

## Karst gölləri

Yeraltı sular duz yataqlarını həll edərək böyük boşluqlar törədir. Bu boşluqların tavanı çox vaxt davamsızdır və uçur. Yer səthinin bu cür uçmuş sahələrində yerüstü və yeraltı sular yığılır. Şimali Xəzəryanı sahələrdə yerləşən Baskunçak, Elton, İnder, Çelkar və digər göllər bu yol ilə əmələ gəlmişdir. Yeraltı karst mağaralarında kiçik göllərə tez – tez təsadüf olunur. Məsələn, Ural ətrafında məşhur Kunqur mağarasında 36 göl aşkar edilmişdir.



Eminov

## Mülayim və subarktik iqlim qrafikləri

bu iki iqlim diaqramı çox vaxt qarışıq salınır, 11-ci və 10-cu sinifdə. Amma temperatur göstəricilərindən görünür ki, biri kəskin kontinental mülayim biri isə subarktik iqlimdir)




Kəskin kontinental




Subarktik

## Okean dibinin relyefi

Süxurların dənizlərdə çökmə əyrisinə və hövzələrin dərinliyinə görə dəniz dibi sahələrə bölünür. Bunlara da batnometrik sahələr deyilir. Bu sahələr aşağıdakılardır:
1. Qabarma və çəkilmələrin baş verdiyi sahil və ya litoral sahə;
2. Şelf sahəsi, çox vaxt buna nerit də deyilir. Sahəyə bu adın verilməsi orada eyni adlı faunanın tapılması ilə əlaqədardır;
3. Batial sahə;
4. Abissal sahə.




Eminov

## Stalaktitlər və stalakmitlər

Yeraltı sular müxtəlif süxurları yumaq və dağıtmaqla bərabər, mağaralarda müxtəlif çöküntülər də əmələ gətirir. Mağaraların tavanından sürətlə böyüyərək, formasına görə buz salxımını xatırladan saçaqlar stalaktit adlanır. Stalaktitdən mağaranın döşəməsinə süzülən, yaxud damcılayan su əhəngli sütuna çevrilir ki, buna da stalaqmit deyilir. Stalaktitlər və stalakmitlər qarşılıqlı inkişaf edib, nəhayət, birləşirlər.



## Suffoziya nədir?

Yeraltı sular bir tərəfdən dağıdıcı, o biri tərəfdən isə yaradıcı işlər görür. Onların dağıdıcı fəaliyyətinə suffoziya deyilir. Suffoziya süxurların həll olması və ya mexaniki yuyulması şəraitində baş verir. Bu proses karst adı ilə məşhurdur. Əhəngdaşları, dolomitlər, gipslər, anhidritlər güclü kristallaşmaya həssas olan çöküntülərdir.



Eminov

## Süxurların su keçirmə qabiliyyəti

Bütün süxurlar özlərində su saxlamaq qabiliyyətinə malikdir. Onlar üç qrupa bölünürlər:
1. Susaxlayan süxurlar – gil, torf;
2. Zəif susaxlayan süxurlar – mergel, löss;
3. Susaxlamayan süxurlar – çatlamalı, püskürmə və bərk çökmə süxurlar:
qayma, çınqıl, qum.
Suyu keçirmək xassəsinə görə də süxurlar üç qrupa bölünür:
1. Su keçirənlər (qum, çınqıl, qayma);
2. Yarımkeçiricilər – löss, mergel;
3. Suyadavamlı, yaxud sukeçirməyənlər (gil).



## Karlar və morenlər necə yaranır?

Dağ ətəklərində buzlaqların hərəkəti zamanı çox dərin olmayan qaşığabənzər formalar yaranır. Bunlar karlar adlanır. Karlar üç tərəfdən dik (şaquli) divarlarla əhatə olunur, dördüncü tərəfi isə dağın yamacına doğru açıqdır. Buzlaqlar özlərinin hərəkəti zamanı kiçik və nazik süxur hissəciklərindən, gil tozlarından tutmuş iri topalara kimi külli miqdarda qırıntı materialı daşıyır. Bu qırıntı materiallarının əksər hissəsi buzlaq kütləsinə daxil olub, orada çökür. Bunlar morenlərdir.







## Duzlu çaylar hansılardır?

Biz oxumuşuq ki, çaylar adətən şirin sulu olar, amma bəzən quru iqlim şəraitində onların suyu şortəhər olur. Məsələn, Qərbi Türkmənistandakı Atrek və Sumbar çaylarında bu hal müşahidə edilir

**Atrek çayı**



## Bataqlıqların əhəmiyyəti

Bataqlıqların öyrənilməsinin həm nəzəri, həm də təcrübi əhəmiyyəti böyükdür. Bəzi bataqlıqlarda torfdan başqa dəmir filizi (limonit), yaşıl boyaq maddəsi kimi işlədilən dənəli filiz, siderit, həmçinin manqan və başqa filizlər əmələ gəlir.  Bataqlıqlarda boyaqçılıq üçün əhəmiyyətli xammal olan limonit, vireianit kimi minerallar böyük ehtiyatlar əmələ gətirir. Limonit həmçinin dəmir filizi kimi də işlədilir. Onun bolit, yəni noxud formalı yuvarlaq növləri də çöküntü mənşəlidir.



Eminov

## Korraziya nədir?

Küləyin apardığı qum hissəcikləri bəzən böyük və qüvvətli zərbə ilə öz yolunda rast gəldiyi bərk süxurlara dəyir, onların üzərində cizgilər, şırımlar, kəsiklər və yarıqlar əmələ gətirir. Bu prosesə korraziya deyilir. Defilyasiya və korraziyanın qarşılıqlı təsiri nəticəsində möhkəm süxurlar da aşınaraq toza və xırda qırıntılara çevrilir. Belə hallarda relyef girintili – çıxıntılı şəklə düşür. Daha möhkəm süxurlar defilyasiyaya və korraziyaya qarşı yüksək müqavimət göstərdiklərindən, onlar səhra və yarımsəhralarda formalarını nisbətən qoruyub saxlayırlar. Möhkəm süxurlardan olan qumdaşları və əhəngdaşlarından ibarət kütlələrə qalıq şəklində rast gəlinir. Çox vaxt bu «qalıqlar» qədim bir şəhərin uçulub qalan xarabalıqlarını xatırladır.



## Qütb tədqiqatçısı

Danimarkalı qütb tədqiqatçısı, antropoloq, jurnalist, aktyor və yazıçı Lorens Peter Elfred Froyhen xanımı Daqmar ilə. Kopenhagen, 1947-ci il.



## Qütb gecə və gündüzləri hakim olan ərazilərdə yayda gündüzlər, qışda gecələr uzun olur




Osman Eminov

# İnsanlar Yerə kosmosdan gəlib?

Panspermiya nəzəriyyəsi Yer kürəsində həyatın mənşəyi barədə nəzəriyyədir. Bu nəzəriyyənin banisi məşhur alman alimi Rixter idi. Sonralar Vernardski də bu nəzəriyyəni müdafiə etməyə başladı.
Panspermiya nəzəriyyəsinə görə Yerdə həyat kosmosdan və yaxud başqa planetdən Yer kürəsinə gəlib. Yerə gələndən sonra isə suyun təsiri ilə daha mürəkkəbləşib və indiki halına gəlib.



# Dolomitin əhəmiyyəti

Dolomit odadavamlı material kimi metallurgiyada sərfəlidir; o, flizləri əritmək üçün işlədilir. Sement sənayesində və nadir hallarda gübrə kimi istifadə olunur.



Eminov

## Topaz mineralı

Topaz adını Qırmızı dənizdəki Topazos adasından alıb.
Topaz qiymətli daşdır. O, həm kəsici material kimi işlədilir və həm də dəqiq cihazların hazırlanmasında istifadə olunur.





## Qlauber duzunun istifadə sahəsi

Mirabilitdən kimya və şüşə sənayesində, habelə təbabətdə istifadə olunur və qlauber duzu da deyirlər



## Hansı vulkan növləri var?

Əvvələr insanlar iki cür vulkan tanıyırdı: Fəaliyyətdə olan və sönmüş vulkan.

Bəzi sönmüş hesab edilən vulkanlar birdən birə fəaliyyətə keçmiş və minlərlə adam ölmüşdü. Məsələn Pinatupo vulkanının heç kim fəaliyyətdə olan vulkan hesab etmirdi, hətta paytaxt Manila şəhəri vulkanın yaxınlığında salınıb. Ta ki, 1991-ci ildə püskürənə qədər. Və yaxud da Vezuvi vulkanı qədim insanlara sönmüş vulkan kimi hesab edilirdi.
Buna görə də alimlər üçüncü tip vulkan növü də ayırdılar. Mürgüləyən vulkanlar.
Fəaliyyətdə olan vulkanların püskürməsi, insanların gözü qarşısında baş verir. Mürgüləyən vulkanlarda vulkanizm əlamətlərinin rast gəlməsi oyanma ehtimalı doğurur. Bu cür vulkanlardan Qafqazda Kazbeki və Elbrusu, Ermənistanda Alagözü, Türkiyədə Araratı və Dəmavəndi göstərmək olar. Sönmüş vulkanlarda heç bir püskürmə nişanəsi yoxdur. Belə vulkanların fəaliyyəti çox qədim dövrlərdə başa çatmışdır




EminC

## Çəltiyi çox yeməyin

Bu çəltik bitkisidir, yaxşı bitkidir, faydalıdır amma içində boy artımına mane olan hormonlar var. Asiyanin cənub, şərq və cənub-şərq ölkələri həddindən artıq yedikləri üçün boyları balaca qalıb) Hər halda zarafat kimi gəlsə də amma həqiqətən də belədir. Necə ki biz çörəyin ifratını çıxarmışıq onlarda düyünün)
Çörəkdə quliten var, yeni nitqin inkişafına mane olur. Uşaqlarımız özünü nə dərəcədə ifadə edə bilir? Nə dərəcədə özü haqqında səlis danışa bilir? Bir rus uşağı ilə müqayisədə bu baxımdan çox geri qalmışıq.



## Vulkan külləri

Vulkanların bərk püskürmə məhsulları ölçülərə görə fərqlidir. Ən xırda hissəciklər vulkan külləridir. Onların diametri 1 mm-dən kiçikdir. Vulkan küllərinin rəngi sarı, ağ, qara, boz və s. olur. Ksudaç vulkanı Sarı, Krakatau isə qırmızı küllər püskürmüşdür. Krakataunun külləri Yer kürəsinin ətrafını iki dəfə dolanmışdır. Bunu Avropada düşən qırmızı rəngli yağışlar da təsdiq etmişdir.
İslandiyadakı Aska vulkanının külləri də 12 saatdan sonra Norveç sahillərinə çatmışdır. Küllər çökərək bir neçə metr qalınlığında qatlar əmələ gətirir. Qafqaz vulkanlarının külləri Voronej vilayətində böyük qalınlıqdadır.



Eminov

## Vezuvi vulkanının dəhşətləri

Vulkanizm geoloji prosesdir. Vulkan püskürmələri təbiətin qorxunc hadisələrindəndir. Onların dəhşətli nəticələri insanlara çox qədim zamanlardan bəri məlumdur. İtalyanın Neapol şəhəri yaxınlığındakı Vezuvi vulkanı dəfələrlə püskürmüşdür. O, indi də fəaliyyətdədir. Eramızın 63-cü illərinədək Vezuvi sönmüş hesab edilirdi. Hətta onun zəif püskürməsi də ətrafında məskən salan əhalini narahat etmirdi. Lakin 79-cu ildə vulkanın yenidən qüvvətlə oyanması böyük fəlakətlərə və dağıntılara səbəb oldu. Bu zaman Pompeya, Herkulanum və Stabiya şəhərləri kül altında itib – batır. Minlərlə adam ölür. Bu barədə qədim Roma tarixçisi kiçik Plini xəbər verir. 500 il onda püskürmədən heç bir əlamət görünmür. Hətta kraterdə palıd ağacı bitir. İnsanlar I əsrdəki bədbəxtlikləri tamamilə unudurlar. Yalnız on yeddi əsr keçdikdən sonra qazıntı zamanı bir mərmər tapıntı xərabəlikləri nişan verir. Hazırda həmin şəhərlər kül altından üzə çıxarılmışdır.



## Delüvial proses nədir?

Delüvial proses müxtəlif şırnaqlar yamacların dik hissəsindən aşağıya tərəf kiçik hissəcikləri daşıyır, həmin yuyulmuş hissəciklər toplanıb delüvi əmələ gətirir.
